YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



# Hər şəhidə bir şeir yazan şair: "3000 şəhid qardaşım var"



*İlhamə Rəsulova*

Bu günlərdə şair Elşad Baratın şəhidlərimiz haqqında yazdığı "Ölümsüzlər" kitabı işıq üzü görüb. Bəzəkdüzəkdən uzaq, kövrək misraları oxuduqca insanın ruhu Kərəm kimi alovlanır.

Necədi anan üçün Yuxu olmaq, səs olmaq?
Necədi vətən üçün Ölüb, müqəddəs olmaq?

Kitabı vərəqlədikcə üzünü heç vaxt görmədiyin, səsini duymadığın yüzlərlə oğul üçün ürəyindən sızıltı keçir. Onun şeirləri pafossuz, sadə və səmimidir. Oxuduqca düşünürsən ki, bunları Elşad yox, hansısa şəhid anası deyib, şəhid xanımı deyib.

*Görüşünə gəlmişəm,*
*Ağlayım, susum səni?*
*Dur, öpüm baş daşından.*
*Bağrıma basım səni.*

Elşadın sətirlərini təsirlənmədən oxumaq mümkün deyil. Bu şeirlər ithaf deyil, balasını son mənzilə yola salan ananın dilindən deyilmiş son lay-lay kimidir. Oxucunu bu qədər təsirləndirən şeirlər o sətirləri qələmə almış şairin ürəyində, kim bilir, necə dərin izlər buraxıb.

Elşad Barat deyir ki, şəhid şeirləri, ithaf şeirləri yazmaq çox çətin olur. "Şəhidin ailəsinin acılarını özündə hiss edirsən, onun barəsində məlumat toplayarkən o qədər ruhən yaxınlaşırsan ki, onunla birlikdə döyüşürsən, ölürsən. Mən bu şeirləri yazarkən yüz dəfələrlə ölüb-dirildim. Bu mənada, onlar haqqında kitab yazmaq çox çətin oldu. Sarsıdıcı duyğu selinin içindəydim. Şəhidlər haqqında yazmaq üçün hər birinin özəl xüsusiyyətlərini öyrəndim. Ayrı-ayrılıqda hər birinin həyatı ilə maraqlandım. Döyüş yolu, şəhid olduğu son döyüş barədə məlumat topladım. Kitabımda hər şəhidin şəkli və haqqında ətraflı məlumat, ona həsr etdiyim bir şeir dərc edilib.



Kitaba Milli Məclisin sədr müavini Adil Əliyev, millət vəkili, Xalq şairi Sabir Rüstəmxanlı və tanınmış şair Ağacəfər Həsənli ön söz yazıblar. Hələlik I cild çapdan çıxıb. II cild yaxın günlərdə nəşr olunacaq. Birinci kitab 300 səhifədir. 300 şəhid haqqında məlumat və şeir var. Bütün şəhidlərimiz haqqında yazacam, heç biri diqqətdən kənarda qalmayacaq.

Bütün şeirləri o şəhidlərin ailələri ilə görüşərək yazıram. Ailələrinə gedirəm, oxuduqları məktəblərdə oluram. Onlar haqqında ən xırda məlumatı, demək olar ki, bütün xatirələri öyrənirəm. Fərdi xüsusiyyətlərini verə bilim deyə. O dərəcədə dərindən araşdırıram ki, sanki, illərin dostuyam onunla. Birlikdə böyümüşük, yaxından tanıyırammış kimi hiss edirəm. Elə olub el-el, oba-oba, kənd-kənd gəzmişəm. Başqa cür uğurlu alınmazdı. Bunu onların dayandığı zirvəyə layiq bilməzdim. Şeirləri o qədər dərindən duyaraq, içdən yazdım ki, 3000 şəhidin hamısı, sanki, əzizim, doğmam, qardaşımdır. Görmədiyim, lakin birlikdə böyüdüyüm və itirdiyim 3000 şəhid qardaşım var mənim. Sanki, onlarla birlikdə yaşamışam, döyüşmüşəm, şəhid olmuşam. Bir-birimizə ruhən bağlanmışıq",- deyə şair bildirir.

Elşad Baratın şəhidlər haqqında yazdığı bu kitablara böyük maraq var. Kitabı araya-ərsəyə gətirmək üçün müxtəlif bölgələrdəki 3000-ə yaxın şəhid evinə getməli olub. Bunu özünün mənəvi borcu hesab edir. Kitabın çapını "Avrora" şirkəti öz üzərinə götürüb.